# AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## NEYROCƏRRAHİYYƏ KAFEDRASININ

## STRATEJİ PLANI

Təbabət mürəkkəb və çətin bir sahəni əhatə edir. Həkim yüksək ixtisaslı sənətkar olmaqla, o, həm də maarifpərvər, elm və mədəniyyət təşviqatçısı və sağlam həyat carçısıdır. ətraf üçün o canlı nümunə və özünəməxsus etalon olmalıdır. Həkimin ümumi mədəniyyəti birinci növbədə onun geniş dünya görüşü bilik dərəcəsi və maraqı ilə ölçülür. Əgər o ancaq bilavasitə sənətə aid olan biliklə kifayətlənirsə, onda o sadəcə peşəkardır. Müasir təbabətin sürətli inkişafı başqa elmlərin (riyaziyyat, kimya, fizika, sosiologiya, psixologiya və s.) nailiyyətləri ilə zənginləşir. Savadlı və mədəni həkim onları dəqiq öyrənməsədə, o nailiyyətlərin prinsipi və təbabətdə tətbiqi barədə lazımı təsəvvürə malik olmalıdır.

Həyat, təbiət, insanlar və onların dərdi, sevinci haqda bizə ən qiymətli məlumatı bədii ədəbiyyat, musiqi, təsviri sənət verir. Hər bir insan üçün bu yüksək hisslər, zövq və emosiya yaradan aləmlə tanış olmaq hava və su kimi vacibdir. Bu keyfiyyətlərə nail olmaq hət bir insandan o cümlədən həkimdən daimi öz üzərində yorulmaq bilmədən işləmək, öz fəaliyyətinə tənqidi yanaşmaq və əldə etdiyi nəticələrə  obyektiv elmi qiymət verməyi tələb edir.

“Neyrocərraiyyə” fənninin məqsədi universitet məzunlarının müasir səviyyədə yetkin həkim kimi hazırlığı, onların müasir diaqnostika müalicə üsullarından istifadə etmək bacarıqlarının mənimsənilməsi və neyrocərrahi xəstələrin müalicəsini təşkil etmək üçün yüksək bacarıqlı həkim kadrlarının yetişdirilməsidir.

“Neyrocərrahiyyə” fənninin tədrisində cərrahi xəstəliklərin etiologiyası, patogenezi, klinikası, diaqnostikası və müalicə üsulları öyrənilir. Fənn tədris olunarkən orqanizmin bütün nahiyyələrinin və orqanlarının cərrahi xəstəlikləri, eləcə də ürək-ağciyər sisteminin, qan damar sisteminin patologiyaları, onların epidemiologiyası, etiologoyası, patogenezi, klinikası və diaqnostikası, müalicə üsulları öyrənilir.

"Neyrocərrahiyyə" fənninin məqsədlərindən biri tələbələrə neyrocərrahi xəstələrin sağlamlığının qorunmasına, möhkəmləndirilməsinə, cərrahi müdaxilə tələb edən xəstəliklərin müalicəsinə, əməliyyatdan sonra qulluğuna və realiblitasiyasına yönəldilmiş bilik və bacarıqları öyrətməkdir.

Tələbələrdə müxtəlif məlumatların bilik səviyyəsində öyrənilməsi, xəstəliklərdən özünü qorumaq, xəstələrə qulluq qaydalarının mənimsəməsi, həkimin yaxın köməkçisi olmaq, müayinə və müalicə üsullarının göstərmə səviyyəsində tədrisi bu fənnin əsas istiqamətlərindəndir. Bu kurs neyrocərrahi xəstəliklər, müayinə və müalicə üsulları haqqında müasir təsəvvürlərə dayanaraq, tələbələrin nəzəri və praktiki cəhətdən biliklərə yiyəlnməsinə şərait yaradır, onların real xəstələrlə konkret situasiyalarda necə davranmalı olduğu prinsiplərini aşılayır.

Fənnin öyrədilməsi tələbə yönlü olub, bir sıra tematik araşdırmalarla, konkret xəstələr üzərində, mulyajlar və manekenlərdə göstərmə səviyyəsində, tədris proqramına uyğun olaraq sillabuslarla həyata keçirilir. Müxtəlif video materialların təhlili, əməliyyatların canlı olaraq izlənməsi, əməliyyatdan əvvəl və sonra xəstələrin aparılması, müxtəlif kliniki situasion məsələlərin və tezislərin həlli tədrisin əsas meyarlarındandır.

Fənnin tədrisində interaktiv tədris üsulu kimi mühazirə, seminar, praktiki tapşırıqlar, təqdimat və müzakirələr, qrup qiymətləndirilməsi, video və audio-video mühazirələr, distant təhsil, simulyasiyalar, sərbəst işlərin qəbulu, test tapşırıqlarının yerinə yetirilməsi istifadə olunur.

1. Tibbi təhsilin pilləli prinsip üzərində qurmasını bəyənirəm: 1. Pilləli təhsil, 2. Səriştəyönlü təhsil, 3. Səviyyəyönlü təhsil, 4. Fasiləsiz təhsil
2. “Neyrocərrahiyyə” fənni üzrə beynəlxalq tədris proqramlarına uyğun tədris proqramı hazırlamaq;
3. Müvafiq tədris proqramına uyğun dərslik, mühazirə, praktik məşğələlər, dərs vəsaitlərinni çap etdirəcəyəm, tədrisi-bacarıq, vərdişlər, bilik üzərində qurmaq;
4. Tələbələrdə bacarıq, bilik, vərdişləri aşılamaq üçün treninq tədris mərkəzində və əməliyyat otaqlarında daha çox vaxt keçirmələrini təmin etmək;
5. Rezidentlərdə bacarıq, vərdiş və biliklərin proqram üzrə aşılamaq üçün, aşağı kurs rezidentlərinin treninq tədris mərkəzinin və əməliyyat otaqlarda məşğulluqlarını yuxarı kurs rezidentlərinin isə daha çox xəstələrdə təmaslarını və əməliyyatlarda köməkçi və operativ kimi çalışmalarını təmin etmək;
6. Əməkdaşların fasiləsiz tibbi təhsillərini davam etdirmələri üçün konfrans və seminarlar təşkil etmək, eyni zamanda digər konfrans və konqreslərdə iştiraklarını təmin və tələb etmək.